# "Nəsimi İli: klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği"

**Azərbaycanın dünya mədəniyyətinə bəxş etdiyi şəxsiyyətlərin sırasında orta əsrlərin nadir poeziya klassiki İmadəddin Nəsimi (1369-1417) önəmli yer tutur. Ədəbiyyat kəhkəşanına tarixin dumanları arasından boylananda görmək olur ki, özündə cahanları sığışdıran, özü isə cahana sığmayan bu böyük mütəfəkkir, ilk növbədə, mübarizliyi ilə diqqəti cəlb edir. Belə ki, məğrur şəxsiyyət, nadir istedad sahibi olan Nəsimi elmlilik, əxlaq, əqidə, inam nümunəsidir. O, sərpa soyulsa da heç vaxt Haqqdan qaçmayıb, həmişə Haqqa doğru addımlayıb. Əqidəsi yolunda edam olunduğuna görə, onu şəhid də, mərdlik və dönməzlik rəmzi də hesab etmək olar. Yeri gəlmişkən, qeyd edək ki, işğalçı Ermənistanla müharibə şəraitində olan ölkəmiz üçün belə örnəklərin təbliği olduqca vacibdir.**




Zəngin ədəbi irs yaratmış, dönməz məslək nümayiş etdirmiş İmadəddin Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, şəxsiyyətin hər cür şərtiliklər və ehkamlardan azad olunmasını tərənnüm etmişdir. O, üsyankar şeirləri ilə Haqqa qovuşan kamil insan olmaq uğrunda inadla mübarizə aparmışdır. Şairin fikrincə, ilahi varlıq səviyyəsinə yüksələn, böyük mənəvi sərvət olan kamil insan ədalətli cəmiyyət yaratmağın da real əsasını təşkil edir. Bir sözlə, yaradılmışlar arasında insanın ən ali varlıq olduğunu İmadəddin Nəsimi qədər irəli çəkən ikinci bir mütəfəkkirə rast gəlmək olduqca çətindir. Bu mənada İmadəddin Nəsimi irsi bəşəriyyətin sərvətidir.

### Nəsimi yaradıcılığının himni

İmadəddin Nəsimi haqqında bir sıra əsərlər yazmış tədqiqatçı-şair, Əbülfət Həsənoğlunun fikrincə, hələ dövründə Azərbaycanla yanaşı, Yaxın Şərq, İraq, Kiçik Asiya və Suriyada, eləcə də Orta Asiyada geniş şöhrət qazanmış İmadəddin Nəsimi yaradıcılığının himni ilahi eşq və bu eşqdə vüsala qovuşmağa layiq olan kamil insandır: "Şairin zəngin irsi hər bir insana anladır ki, yüksək elmlilik, dini və mənəvi-əxlaqi idealları qoruyub inkişaf etdirmək yolu ilə insan kamilliyə qovuşa bilər. Kamil insan əsl həqiqəti dərk edir və nəfsini idarə etməklə mənən saflaşaraq ilahi eşqində vüsala hazır olur. Təəssüf ki, ilahi eşq yolunu tutmuş, yüksək dini etiqada malik İmadəddin Nəsimi fəlsəfi fikirlərinə görə sovetlər dönəmində dinsiz kimi qələmə verilmişdir. Halbuki Nəsimi səmavi kitabların, o cümlədən Quranın öyrənilməsi ilə Allaha qovuşmağın və yaradana layiq olmağın mümkün olacağını söyləmişdir. Nəsiminin 1963 beytini ("İraq divanı") şərh etmiş bir araşdırıcı kimi deyə bilərəm ki, onun poeziyasında Allaha və onun kəlamı olan müqəddəs Qurani-Kərimə xələl gətirəcək heç bir kəlməyə təsadüf etməmişəm. Elə götürək hürufiliyin aparıcı simalarından biri olan İmadəddin Nəsiminin ədəbiyyatımızda müəyyən mübahisələrə səbəb olan "Ənəlhəqq"lə bağlı fikirləri-ni. Təsəvvüfdə eşq, insan ruhunun Allaha qovuşub onda əriməsi arzusudur. "Ənəlhəqq" isə bu arzuya çatmağın ifadəsidir. Yəni, "ənəlhəqq"i mənəm haqq kimi anlayıb ona müstəqim məna vermək olmaz. "Ənəlhəqq" bir bənzətmədir, məcazdır və onun dini mənası Allahın təbliğidir, onu əyani olaraq insanlara dərk etdirməkdir. "Ənəlhəqq" söyləmək o kamil insanlara qismət olur ki, onlar öz içində nəfsi boğub məleksima olmaqla "fəna-fillah" məqamına yetişsinlər. Belə insanları Allah mükafatlandıraraq qəlblərini nurlandırır. Bu məqam "bəqabillah" adlanır və "ənəlhəqq" (haqq məndədir, haqla haqq olmuşam və ya ilahi nurlanmaya yetişmişəm) söyləməyə imkan verən bir haldır. Onu da qeyd edək ki, adi dindarlar tərəfindən qəbul edilməyən "ənəlhəqq" Haqq aşiqləri tərəfindən Quranın "Ən-Nur" surəsinin 35-ci ayəsi ilə əsaslandırılır: "Allah göylərin və yerin nurudur. O, nur üstündən nurdur. Allah dilədiyi bəndəni öz nuruna qovuşdurur". Bu mənada, Nəsimi yaradıcılığı başdan-başa Qurani-Kərimin surələri, ayələri, ayrı-ayrı ifadələri üzərində şifrələnmiş fəlsəfi poeziyadır".

Burada bir məqama da toxunmaq istərdik. Cəmi 48 il ömür sürmüş İmadəddin Nəsimi millətlər, xalqlar, dinlər, təriqətlər arasında heç bir fərq qoymayıb. Müxtəlif dinlərə, müxtəlif xalqlara qarşı hörmət və ehtiram, daha doğrusu, tolerant baxışlar onun yaradıcılığında tam şəffaflığı ilə öz əksini tapıb.

İsamısan, Musamısan?
Ya Yusifi - Kənanmısan?
Vallah ki, canım canmısan,
Mən səndən üz döndərmənəm!

Bu isə o deməkdir ki, İmadəddin Nəsimi bir dini digərindən üstün tutmur, kəbə kilsə arasında fərq görmür. Onun fikrincə, hansı millətə, hansı dinə, hansı təriqətə məsub olmağından asılı olmayaraq bütün insanlar Allah qarşısında bərabərdir. Onun üçün "kamil insan" və "cahil adam" vardır. Şübhəsiz, bütün bu fikirlər bəşər övladına multikultural yanaşmanın bir fəlsəfi təcəssümüdür.

### Heyrətlənməmək mümkün deyil

İmadəddin Nəsimini oxuyarkən heyrətlənməmək qeyri-mümkündür. Misralarındakı məna yükündən əlavə dilinin təmizliyi oxucunu heyrətləndirir. Sanki XIV əsrin şairi deyil, səninlə danışan, səninlə söhbət edən, öz müasirindir.

Üzün məndən nihan etmək dilərsən, etməgil!
Gözlərim yaşın rəvan etmək dilərsən, etməgil!

Dilin təmizliyinə, beytin poetik qüdrətinə fikir verirsinizmi? Şairin dilimizin dil vahidlərindən necə yüksək səviyyədə istifadə etməsinə heyrətlənməmək mümkün deyil. Bəli, o, dilimizdən sistemli şəkildə, ardıcıllıqla, məhəbbətlə istifadə edib. "Məndə sığar iki cahan, mən bu cahana sığmazam". Bu misranın səkkiz kəlməsindən altısı öz sözlərimizdir... Özü də necə? Sadədən sadə, anlaşıqlı və başadüşülən. Hətta dövr və tarix baxımından Məhəmməd Füzulidən əvvəl yaşamasına baxmayaraq, çox mürəkkəb bir yol keçmiş İmadəddin Nəsiminin dili poetik fikirlərlə, gözlənilməz təşbehlərlə zəngin olan xələfindən daha sadə, daha rəvan və tezqavranandır. Şair bəzən öz fikirlərini atalar sözü və məsəllərlə də rövnəqləndirib. Məsələn, "Doğruya zaval yoxdur" atalar sözündən Nəsimi bir qəzəlində belə istifadə edib:

Dedilər, miskin Nəsimi, doğruya yoxdur zaval,
Müddəilər qalib oldu hazır olgil başınə.

Bəli, tale ona Azərbaycan dilində yazan çox böyük və müqtədir sənətkar titulu qismət etdi. Nadir incilər yaratdığı bu lətafətli dillə o, dövrün-zamanın çox ciddi tələbi olan ərəb-fars dilində yazıb-yaratmağa qarşı etibarlı bir sipər çəkdi. Bu mənada Nəsimi yaradıcılığına nəzər saldıqda aydın görünür ki, onun hər şeiri bir möhtəşəm əsərdir. İmadəddin Nəsiminin elmi-fəlsəfi düşüncəsinin kamilliyini, müstəsna əqidə və iradə sahibi kimi böyüklüyünü bir yana qoysaq belə, bir şair kimi onun misilsiz xidməti, fikrimizcə, məhz həm də budur. Prezident İlham Əliyevin bildirdiyi kimi, elə buna görə də Nəsimi ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir.

### Dəyərlər sisteminin təntənəsi

Şübhəsiz, Prezident İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar "Nəsimi İli" elan edilməsi klassik söz-sənət adamına göstərilən yüksək ehtiram və məhəbbətin ifadəsidir. Təkcə ona görə yox ki, bu, 3 dildə (ərəb, fars və türk) mükəmməl divanlar ərsəyə gətirmiş, həyatı əfsanəyə dönmüş bir qüdrətli söz ustasının halal haqqıdır, bəlkə, daha çox ona görə ki, aradan altı əsr yarım keçməsinə rəğmən, bu gün də dəyərini itirməyən bir sənətkarın söz dünyasına, daha geniş anlamda isə bənzərsiz həyat və yaradıcılığına, onun milli və bəşəri ideyalarına verilən qiymətdir. Bu, həm də məsləkindən dönməyən bir insanın istər həyatın bütün dönəmlərində yüksək diqqətə malik olduğunun sübutu kimi, istərsə də Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə məhz Nəsiminin timsalında bəxş etdiyi dəyərlər sisteminin təntənəsi baxımından diqqət çəkir. Belə ki, Nəsiminin böyük idealları müasir dövrün də ideyalarını əks etdirir, onun əsərləri insanlığı mənəvi kamilliyə, ədalətə, humanizmə çağırmaqda davam edir. Bəli, İmadəddin Nəsimi və onun kimi şəxslər millətimizin mənəvi sərvəti olub, ölkəmizin, xalqımızın dünyaya tanıdılması üçün vizit kartıdır. Bu mənada Nəsimini öyrənmək, təbliğ etmək Azərbaycan xalqının zəngin mədəni irsini bütün dünyaya çatdırmaq üçün yeni imkanlar açıb. Fəlsəfi görüşləri ilə kamil insan simvoluna çevrilmiş, böyük ideallar şairi Nəsimi irsinin XXI əsrdə dünyada baş verən ictimai-siyasi proseslər fonunda yenidən öyrənilməsi, araşdırılması və təbliği bu baxımdan da aktualdır.

Digər tərəfdən, bədxah qonşularımızın xalqımıza, ölkəmizə hər cür şər və böhtan atdığı bir dövrdə İmadəddin Nəsiminin parlaq şəxsiyyəti və idealı fonunda cari ildə beynəlxalq aləmin diqqət mərkəzində olmaq, şübhəsiz, ümummilli bir dəyərdir. Yeri gəlmişkən, qeyd edək ki, artıq dünya miqyasında İmadəddin Nəsiminin adının əbədiləşdirilməsi istiqamətində də müəyyən addımlar atılmaqdadır. Məsələn, İmadəddin Nəsiminin 650 illiyi ilə əlaqədar Beynəlxalq Astronomiya İttifaqı (BAİ) kiçik planetlərdən birinə onun adının verilməsi barədə qərar qəbul edib. Şübhəsiz, bu istiqamətdə digər addımların da atılacağı istisna deyil.

Artıq tədqiqatçılarımız İmadəddin Nəsimi irsini araşdırmaqda davam etməkdədirlər. Nə xoş ki, son zamanların araşdırmalarının nəticəsi olaraq bu görkəmli mütəfəkkirin yeni əlyazmaları tapılıb. Məsələn, bu yaxınlarda Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru Paşa Kərimov böyük Azərbaycan şairi İmadəddin Nəsiminin "Divan"ının - lirik şeirlər toplusunun Ankaranın Milli Kitabxanasında saxlanılan iki əlyazma nüsxəsinin surətini əldə edib. Tədqiqatçı-alim, Seymur Nəsirov isə apardığı tədqiqatlar əsnasında Misirin paytaxtı Qahirədə yerləşən "Misir Kitablar Evi"ndə (Dər əl-Kutub əl-Misriyyə) İmadəddin Nəsiminin Azərbaycan və fars dillərində olan əlyazmalarını aşkar edib. Şübhəsiz, bu zəngin ədəbi irsin tədqiqi Nəsimi yaradıcılığının öyrənilməsi istiqamətində nəsimisevərlər üçün yeni üfüqlər açır.

Hazırda İmadəddin Nəsimi poeziyası müxtəlif xarici dillərə (ərəb, alman, ingilis, fransız, italyan, rus, türk və vyetnam və s.) tərcümə olunaraq beynəlxalq aləmdə daha geniş yayılmaqdadır. Bütün bunlar Qoca Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini yaradan İmadəddin Nəsimi kimi mütəfəkkirin bir daha dünya miqyasında tanıdılmasında, onun milli və bəşəri ideyalarının təbliğində böyük əhəmiyyət kəsb edir. Bu mənada hazırda Nəsiminin təbliği istiqamətində atılan hər bir addım təqdirəlayiqdir.

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

***Yazı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim edilir.***